# MEDİADA XARİCİ DÖVLƏTLƏRLƏ BAĞLI NARRATİVLƏR

İYUL 2023



## Giriş

*“Mediada xarici dövlətlərlə bağlı narrativlər” reportu “Fakt Yoxla” tərəfindən Azərbaycan mediasında İran, Rusiya, Türkiyə və Qərb dövlətləri haqqında dərc olunan narrativləri özündə ehtiva edir. Reportun bu sayı 2023-cü ilin 1 iyul - 31 iyul tarixlərini əhatə edir.*

***Məqsəd.*** *Reportun hazırlanmasında məqsəd ölkənin media mühitində qonşu dövlətlər olan İran, Türkiyə və Rusiya və Qərb dövlətləri ilə bağlı hansı narrativlərin (hekayələrin) dərc edildiyini, dövri olaraq bu hekayələrin sayında və ya məzmununda hansı dəyişikliklərin olduğunu, hansı dövlətlərə qarşı qarayaxma kampaniyalarının aparıldığını ölkə vətəndaşlarına göstərməkdir.*

***Metodologiya.*** *Monitorinq yalnız onlayn resursları əhatə edir. Heç bir televiziya və ya çap mediası monitorinqə daxil edilmir. Siyasətçilərin və qurumların açıqlamaları və ya bəyanatları monitorinqə yalnız o halda daxil edilib ki, onlara verilən başlıqlar yönləndirici olsun. Video formatında olan materiallar monitorinqin əhatə dairəsinə daxil edilməyib. Monitorinq zamanı uyğun media qurumlarının bütün dərc edilən xəbərlər gözdən keçirilib, açar sözlər vasitəsilə axtarışdan istifadə edilməyib. Monitorinqə cəlb edilən media qurumları ölkədə çox oxunma sayına və tərəfliliyinə əsasən seçilmişdir.*

***İyul*** *ayı ərzində monitorinq edilmiş media qurumları aşağıdakılardır:*
*Apa.az, Oxu.az, Musavat.com, Sputnik.az, Demotiya.com, Trend.az, Milli.az, Axar.az, Qafqazinfo.az*

***Nəticə****. Nəticələrə görə bu ay ərzində monitorinq edilmiş media qurumlarında ən çox yer alan xarici dövlət Rusiyadır. Rusiya ilə bağlı ay ərzində 67 narrativ qeydə alınıb. Ümumilikdə monitorinqin nəticəsində 135 narrativ aşkar edilmişdir:*



## Türkiyə

Türkiyə tarixinin müdafiə sahəsində ən böyük ixrac müqaviləsi imzalandı. Link (18 iyul 2023)

Bizim Prezident Rəcəb Tayyib Ərdoğanla şəxsi dostluğumuz təkcə regionda deyil, dünyada məlum bir faktordur. Bu, regional inkişaf və sabitlik baxımından da çox mühüm faktordur. Link (21 iyul 2023)

İstanbul Birjasının əsas indeksi BIST100 bazar ertəsi bütün zamanların ən yüksək göstəricisi olan 6000-i keçib. Link (4 iyul 2023)

Türkiyə təyyarələri NATO sammitinin təhlükəsizliyinin təmin edilməsində iştirak edir. Link (12 iyul 2023)

Türkiyənin tələbi ilə Yunanıstandakı PKK düşərgəsi boşaldılıb. Link (5 iyul 2023)

7 il bundan əvvəl hakimiyyəti zorla ələ keçirməyə çalışan terrorçu qrupun hərbi çevriliş cəhdi Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə xalqı tərəfindən qətiyyətlə alınıb. Nəticədə, Türkiyə xalqı milli dövlətini, legitim hakimiyyəti və ölkənin bütövlüyünü qoruyub. Link (15 iyul 2023)

Türkiyə regional güc kimi: Çinin yeni XİN başçısı ilk səfərini Ankaraya etdi. Link (28 iyul 2023)

Türkiyə və Azərbaycan hava məkanlarını birgə qoruyacaqlar: Bizi təhdid edənlər bir daha düşünəcəklər. Link (8 iyul 2023)

Qardaş ölkə Ermənistanla sərhədlərin açılmasını haqlı olaraq İrəvanın Bakı ilə sülh müqaviləsi imzalamasına bağlayır. Yəni Azərbaycanla münasibətləri qaydaya salandan sonra Ermənistanın Türkiyə ilə də heç bir problemi qalmayacaq. Link (25 iyul 2023)

Bayden Türkiyə ilə bacarmır, Britaniyadan yardım istəyir. Link (10 iyul 2023)

Ərdoğan bacardı: Baydenlə qalib kimi görüşəcək. Link (11 iyul 2023)

Türkiyədə dünyanın ilk ağıllı sualtı minasını yaratdı. Link (26 iyul 2023)

## İran

İran XİN Azərbaycan səfirliyinin təhlükəsizliyi ilə bağlı söz verdi. Link (10 iyul 2023)

ABŞ istəsə, İran buzları əritməyə hazırdır. Link(24 iyul 2023)

Səfirliyimizə qarşı teörədilən bu cinayət bir terror aktı olsa da, əslində bunun təşkilatlandırılmamış olduğunu söyləmək absurddur. Amma İran hələ də bu absurd işindən əl çəkmir. Rəsmi Tehran səfirliyimizin təhlükəsizliyini təmin etməməsi, bu

terror aktının hansı şəkildə planlaşdırılması və hansı şəxslərin (neçə nəfər) terror aktında əlinin olmasından bir kəlmə belə danışmır. Link (4 iyul 2023)

İranın Azərbaycanın Tehrandakı səfirliyinin tam şəkildə mühafizə olunacağını deməsi inandırıcı görünmür. Link (10 iyul 2023)

Bakıdakı terror planının arxasında İran dayanır - İsraildən REAKSİYA. Link (13 iyul 2023)

İran Silahlı Qüvvələri Baş Qərargahının rəisi general-mayor Məhəmməd Bagirinin Azərbaycan-İran sərhəddinin Poldəşt bölgəsindəki sərhəd məntəqəsinə gəlməsi müzakirələrə səbəb olub. Milli.Az axar.az-a istinadən bildirir ki, İranın bir neçə mediası və sosial media kanalları Bagirinin səfərini Azərbaycan Respublikasına xəbərdarlıq kimi təqdim ediblər. Link (21 iyul 2023)

İran niyə nala-mıxa vurur? - Səfirliyimizə qarşı terror hücumu ört-basdır edilir. Link (4 iyul 2023)

Zəngəzur dəhlizi Ermənistanın öhdəliyidir - Fransa və İran niyə qərəz göstərir? Link (5 iyul 2023)

Amma bəlli, prosesə ciddi maneələr yaradan, süni əngəllərin "istehsal"ı ilə məşğul olan və prosesi ümumiyyətlə, dayandırmağa çalışan qüvvələr də var. Belə qüvvələr arasında Fransanın dövlət başçısı Emmanuel Makron hətta Rusiya Federasiyası və İranla regionda az qala situativ tərəfdaşlıq edərək Bakıya təzyiqlər göstərməyə çalışır, özünü Ermənistanın "hamisi" elan edir. Link (5 iyul 2023)

Yenidən maraqlı suallar səslənməyə başlayır. İran XİN rəsmisinin açıqlamasından belə çıxır ki, deməli İran Azərbaycanın Tehrandakı səfirliyinin təhlükəsizliyinə ya etina etmirmiş ya da lazımsız hesab edirmiş. Bu da səfirliyimizə qarşı terror aktının törədilməsi ilə nəticələnib. İran Azərbaycanın səfirliyinin təhlükəsizliyinin qorunması üzrə öz dedikləri kimi “diplomatik polis”i yerləşdirib, lakin polisi silahsız orada saxlamaqla (İran rəsmilərinin fikrincə, diplomatik korpusun mühafizəçi polisi silahsız olub) və yaxud polisin səfirliyə hücumu planlaşdıran və terror aktını törədənlərlə əməkdaşlıq etməsinə hansı don geyindirməyə çalışır. Link (10 iyul 2023)

İran Azərbaycanda çalışmış diplomatı Ermənistana səfir göndərdi. Link (10 iyul 2023)
Təkrar paylaşım: Link

Azərbaycanda İsrail səfirliyinə terror cəhdinin arxasında İran dayanır. Link (13 iyul 2023)

İran molla rejiminin döyüşlərə uşaqları cəlb etdiyinə dair sübut aşkarlandı. Link (20 iyul 2023)

Urmiya gölünü qurutmaq məqsədilə İran hökumətinin tikdiyi su bəndləri müəyyən edilib. Bu məqsədlə tikilən ümumilikdə 103 bənddən 79-nun adı açıqlanıb. Link (21 iyul 2023)

Görüntülərdə aydın müşahidə olunur ki, daşınan yükü gizlətmək üçün onun üzərinə göy rəngdə tent atılıb. Lakin aydındır ki, İrandan Ermənistana daşınan yüklər hərbi məqsədlər üçün nəzərdə tutulub. Link (26 iyul 2023)
Təkrar paylaşım: Link

Hindistanın İran vasitəsilə Ermənistana silah ötürməsi onun qlobal maraqlarının təmin edilməsi istiqamətindəki səylərinin tərkib hissəsidir. Hərçənd, kadrlarda görünən üstü tentlə örtülmüş silahların konkret hansı kateqoriyadan olduğu barədə dəqiq məlumatlar yoxdur. Link (27 iyul 2023)

Tehran rejimi İran ermənilərinin vasitəsilə Türkiyəyə və Azərbaycana qarşı fəaliyyət göstərir. Link (28 iyul 2023)

Gözlənildiyi kimi, bu əməliyyatın üzərindəki qalın sirr pərdəsi İran təbliğat maşını tərəfindən Azərbaycana qarşı növbəti böhtan kampaniyası üçün istifadəyə fürsət verib. "Maşhregh" "Bakıda Kipr əməliyyatlarının çəkilişi, Yusif Şabazi kimdir və Kipr əməliyyatının arxasında nə durur?" adlı yazısında xəbər verir ki, işğal olunmuş ərazilərdə (yəni Fələstində) və Avropada sionsit rejimin (İsrailin) bir neçə zabiti öldürüldükdən sonra "Mossad" agentləri çəkilişlər üçün Bakıya gedib. Link (6 iyul)

İran yenə riyakarlığından əl çəkmir - istintaq bitib, amma... Link (6 iyul 2023)

İran öz vətəndaşlarına belə zülm edir. Link (8 iyul 2023)

Tehrandakı səfirliyimizə hücum edən edam olunacaq? - İranın növbəti blefi, yoxsa...Link (8 iyul 2023)

"Səfirliyə hücumu terrorçunun arvadı təşkil edib" - İranın yeni yalanı. Link (14 iyul 2023)

İran hakimiyyətinin Urmiya gölü ilə bağlı apardığı təbliğata rəğmən, mütəxəssislər və ekoloqlar gölün yox olmaq təhlükəsi ilə üzləşdiyini bildirirlər. Link (18 iyul 2023)

İran Azərbaycanla niyə düşmənçilik edir?  Link (25 iyul)

İsveçdə Qurani-Kərimin yandırılmasına qarşı müsəlman ölkələrinin reaksiyaları fonunda İranın yalnız Azərbaycan Respublikasında yayılmaq – yəni antitəbliğat üçün yaratdığı "Səhər" kanalı ölkəmizə qarşı yeni "ittihamla" çıxış edib. Link (1 iyul 2023)

İranın Azərbaycana qarşı ən təhlükəli siyasəti. Link (6 iyul 2023)

İranda ərzaq qıtlığı: növbə üstündə qətl baş verdi. Link (7 iyul 2023)

İranlı deputat millət vəkillərimizi "həyasız" adlandırdı. Link (7 iyul 2023)

Tehran "düzələn" münasibətləri yenə pozdu. Link (17 iyul 2023)

Azərbaycanı Tehranın oyununa qurban etməyəcəyik. Link (19 iyul 2023)

Dünyada xüsusi özəllikləriylə seçilən Urmiya gölü molla rejiminin sayəsində, qeyri-adi qəribçilik içində quruyub getməkdədir. Link (21 iyul 2023)

İranlı ekspertlər Qarabağa “artsax” dedi. Link (24 iyul 2023)

Rəisi Mirzoyanla görüşdü, minillik qardaşlıqdan danışdı. Link (24 iyul 2023)

Urmu böhranı: Rejim milli fəalları təhdid edir. Link (25 iyul 2023)

Ermənistan İran üzərindən Hindistandan silah-sursat daşıyır. Link (26 iyul 2023)

Ermənilər İran hökumətinin dəstəyi ilə Tehranda Azərbaycana qarşı aksiya keçiriblər. Link (26 iyul 2023)

İranda Azərbaycana qarşı yeni təbliğat başladı – Foto. Link (28 iyul 2023)

İrandan İrəvana silah daşınır: Bayramov zəng etdi. Link (28 iyul 2023)

İranla Ermənistan Araz çayını kanserogen maddələrlə necə çirkləndirir? Link (12 iyul 2023)

İran mətbuatı ölkə Prezidenti İbrahim Rəisinin bundan əvvəl bölgəyə səfərini xatırladaraq yazır ki, dövlət başçısının səfəri zamanı Urmunun bərpasını təlqin edən görüntülər gölün ən dərin nöqtəsində çəkilmiş təbliğat xarakterli saxta videolardan ibarət olub. Link (18 iyul 2023)
Təkrar paylaşım: Link

## Rusiya

Rusiya vətəndaşlarının Putinə etimad səviyyəsi yüksəkdir. Link (2 iyul 2023)

Kreml Azərbaycan rəhbərliyinin mövqeyini yüksək qiymətləndirir. Link (10 iyul 2023)

Rusiyada ərzaq inflyasiyası Avropada ən aşağı səviyyədə olub. Link (23 iyul 2023)

Rusiya Silahlı Qüvvələri kilsələrə zərbə endirmir. Link (24 iyul 2023)

Afrika liderləri Putinə minnətə gediblər. Link (24 iyul 2023)

Azərbaycan-Rusiya ticarət dövriyyəsi: İdxal və ixracda kəskin yüksəlişi nəyə borcluyuq? Link (25 iyul 2023)

Qeyri-qanuni erməni silahlı dəstələri gizli yollarla Qarabağda silah daşımağa davam edir. Milli.Az bildirir ki, təqdim edilən videogörüntüdə Rusiya sülhməramlılarının müşayiəti ilə qanunsuz erməni silahlı birləşmələri üzvləri Xankəndi - Kərkicahan yolu ilə silah daşıdıqları aydın görünür. Link (1 iyul 2023)

Rusiya sülhməramlılarının müşayiəti ilə ermənilərin qanunsuz daşımaları davam edir. Link (5 iyul 2023)

Rusiya müharibənin 500 günündə qarşıya qoyulan heç bir məqsədə nail ola bilməyib. Link (9 iyul 2023)

Xankəndidə Rusiya barmağı: Silahlı üsyan çağırışı edildi. Link (14 iyul 2023)

Rusiyada Azərbaycan əleyhinə kampaniya davam edir. Link (22 iyul 2023)

Trend xəbər verir ki, təqdim edilən videogörüntüdə Rusiya sülhməramlılarının müşayiəti ilə qanunsuz erməni silahlı birləşmələri üzvləri Xankəndi – Kərkicahan yolu ilə silah daşıdıqları aydın görünür. Link (1 iyul 2023)

İrəvanla Moskva üçtərəfli bəyanata sadiq olduqlarını, sənəddəki şərtlərin, tələblərin və xüsusilə də bəndlərin şərtsiz yerinə yetirilməsinin təminatı ilə bağlı zəruri proseslərin getməsinə ehtiyac duyulduğunu desələr də, məhz Rusiya Federasiyası və Ermənistan sözügedən sənədin faktiki olaraq qüvvədən düşməsinə şərait yaradıblar. Link(1 iyul 2023)

Sülhməramlıların müşayiəti ilə ermənilər Qarabağda yenə silah daşıyır. Link (5 iyul 2023)

44 günlük İkinci Qarabağ Müharibəsi başa çatan gündən bəri Ermənistanla Xankəndi arasında intensiv nəqliyyat hərəkəti və daşımalar vardı. Rusiya Sülhməramlı Kontingentinin (RSK) müvəqqəti yerləşdiyi ərazilərdə yaşayan ermənilərin separatçı rəhbərləri ölkəmizin bu hissəsindəki mədənləri və yataqları vəhşicəsinə istismar edərək Ermənistana daşımalarla məşğuldular. Link (11 iyul 2023)

Ən nəhayət, Ermənistan unutmasın ki, Rusiya Federasiyası hazırda ABŞ və ya Avropa İttifaqından fərqli olaraq, vasitəçi yox, tərəfdir. 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda, daha sonra razılaşdırılaraq qəbul edilmiş birgə sənədlərin hamısında Moskvanın imzası var. Bu isə avtomatik və aksiomatik olaraq Rusiyanın üzərinə bəlli öhdəliklər qoyur. Rəsmi Bakı bütün öhdəliklərini yerinə yetirir və bunu da Rusiyadan gözləyir. Link (12 iyul 2023)

Rusiya Federasiyasının bütün siyasi və geosiyasi təsir mexanizmlərini işə salaraq, habelə qarabağlı erməniləri dünən Xankəndində "beynəlxalq ictimaiyyətə ünvanlanmış etiraz mitinqi" keçirməyə sövq etməsi Brüssel danışıqları astanasında Moskvanın Qərbə qarşı son müqavimət cəhdi idi. Link (15 iyul 2023)

Azərbaycanın ərazi bütövlüyünü bütün dünya, o cümlədən Rusiya dövləti tanıyır. Bu gün rus sülhməramlıları da məhz Azərbaycan ərazisində müvəqqəti fəaliyyətlə məşğuldurlar. Azərbaycanın ərazi bütövlüyünü nəinki Qarabağ, hətta anklavlarla birgə tanıdığını Ermənistan Baş naziri Nikol Paşinyan da bəyan etdiyi təqdirdə, Rusiya sülhməramlı kontingenti hansı haqq-hüquqla öz bayrağı ilə birgə Ermənistanın bayrağı azmış kimi qondarma rejimin də əski parçasını dirəkdən asıb?! Link (15 iyul 2023)

Rusiya nə 30 illik işğal zamanı, nə də 44 günlük müharibədən üzü buyana - geridə qalan 34 il müddətində hələ bu qədər kartlarını açmamışdı. Görünür Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın açıqlaması ilanın quyruğundan basmaq effekti verib. Ərdoğan Rusiya sülhməramlılarına “Qarabağdan çıxacaqsınız” deməklə Ankara və Bakının qarşısında dayanan hədəflərdən birini çox açıq bildirdi. Link (17 iyul 2023)

RSK-nın yerləşdiyi ərazilərdən təbii ehtiyatlarımızın barbarcasına talanması nəticəsində əldə edilmiş filiz, minerallar, taxta-şalban və s. Ermənistana aparılırdı. Link (18 iyul 2023)

Rusiya onillərdən bəri Ermənistanı silah və hərbi texnika ilə təmin edən dövlət statusuna malikdir. Hələ mərhum prezident Boris Yeltsinin dönəmində Moskva tamamən qeyri-rəsmi olaraq İrəvana 3 milyard dollardan artıq silahla texnika hədiyyə etmişdi. 2019-cu ilin noyabr ayına qədər Rusiya Federasiyası Ermənistana silahz-sursat, hərbi texnika və s.-ni daxili qiymətlərlə, yəni çox ucuz qiymətə "satırdı"."Satış" mexanizmi sadə idi: Rusiya Ermənistana güzəştli kredit ayırır, sonra həmin kredit həcmində silah və texnika verir, sonda isə kredit ermənilərə "bağışlanaraq" silinirdi.Faktiki olaraq Ermənistana silah-sursat və texnika hədiyyə edilirdi. Link (20 iyul 2023)

Pyotr və onun kimi digər ermənipərəst ruslar bunu da mütləq bilməlidirlər ki, Azərbaycan müstəqil dövlətdir, müstəqil siyasət həyata keçirir və heç kimdən, o cümlədən də Rusiyadan asılı deyil. Link (21 iyul 2023)

Rusiya Federasiyası Ermənistanın hakimiyyətinə və xüsusilə də baş nazir Nikol Paşinyana təsir imkanlarını itirməkdə olduğundan indi əsas stavkanı qarabağlı ermənilərə edir. Link (22 iyul 2023)

Rusiya mediasında anti-Azərbaycan abu-havası artmaqdadır. Link (22 iyul 2023)
Təkrar paylaşım: Link

Cənubi Qafqazla bağlı Rusiyanın planları bəllidir: Ermənistanın Qərbə meyillənməsinin qarşısını almaq, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Sülhməramlı Kontingentin (RSK) 2025-ci ildə səlahiyyət və fəaliyyət müddəti bitəndən sonra da indiki arealda qalmasını şərtləndirəcək amillər toplusu formalaşdırmaq, Azərbaycanla Ermənistan arasında yekun sülh sazişinin imzalanması prosesində əsas vasitəçi və moderator olmaq və ən nəhayət, bölgədə təsir imkanlarını artırmaq. Link (24 iyul 2023)

Qərbdə baş tutan bu təmaslar ərəfəsində Rusiyanın ciddi narahatlığı diqqətdən qaçmadı. Biz bunu Azərbaycan-Ermənistan şərti sərhəddi də daxil olmaqla, Qarabağda da çox aydın hiss etdik. Demək olar ki, həmən görüşlər zamanı 1 saat silah səsləri susmadı. Link (25 iyul 2023)

Absurd açıqlamalarda Xankədidəki separatçı rejimin rəhbəri Araik Arutyunyanı və Rusiyanın bölgəyə təsir agenti qisminlə yollayaraq situasiyanı daim gərginləşdirmək tapşırığı verdiyi Ruben Vardanyanı da geridə qoymağa başlamış Nikol Paşinyan siyasi əxlaq prinsiplərini də unudub. Link (25 iyul 2023)

Bildirilib ki, videoda Rusiya sülhməramlılarının müşayiəti ilə qanunsuz erməni silahlı birləşmələri üzvləri Xankəndi - Kərkicahan yolu ilə silah daşıdıqları aydın görünür. Link (1 iyul 2023)

Sülhməramlılar Qarabağda separatçıların qanunsuz hərbi daşımalarına şərait yaradırlar. Link (5 iyul 2023)

Sülhməramlılar bayrağımıza hörmətsizlik etdilər. Link (7 iyul 2023)

Ermənilər Qarabağda Rusiya sülhməramlılarının müşayiəti ilə qanunsuz hərbi daşımaları davam etdirirlər. Link (18 iyul 2023)

Rusiya sülhməramlıları erməni separatçıların qanunsuz hərbi daşımalarını müşayiət edirlər. Link (25 iyul 2023)

Rusiya-Qərb riyakarlığı: Qarabağda və Ukraynada. Link (25 iyul 2023)

Rusiyanın Azərbaycana qarşı dəşhətli təxribat PLANI. Link (6 iyul 2023)

Rusiya sülhməramlılarından bayrağımıza qarşı TƏHQİR. Link (7 iyul 2023)

Moskva ilə təmaslardan sonra rəsmi İrəvan yenidən “val”ı dəyişib; Ermənistan rəhbərliyi status-kvonun davamında maraqlıdır. Link (11 iyul 2023)

Rusiyanın nüvə silahlarını alın - Putin bitib və ölkəsi tezliklə dağıla bilər. Link (16 iyul 2023)

10 noyabr sənədini “basdırıb” üstündə yas quran Rusiya – Qarabağ Pyotrun mirası deyil!  Link (16 iyul 2023)

İmzasına hörmət qoymayan Rusiya – Kremlin “unutduğu” sazişlər...Link (16 iyul 2023)

Rusiya Qafqazda “körpüləri” uçurur: Bakı Kremlin erməni terrorizminə dəstəyini cavabsız buraxmır. Link (17 iyul 2023)

Rusiyadan Azərbaycana qarşı bayraq həyasızlığı, hədə kimi çağırış - 10 noyabr sənədi “basdırıldı”? Link (18 iyul 2023)

Bakının yeni "yol xəritəsi": vəziyyət dəyişir - Rusiya öz "ayağına" niyə güllə atır? Link (18 iyul 2023)

Rusiya sülhməramlıları yenə Qarabağda qanunsuz hərbi daşımalara şərait yaratdı. Link (18 iyul 2023)

Rusiya niyə Qarabağda təxribatlara başladı? Kremlin oyunlarının PƏRDƏARXASI. Link (18 iyul 2023)

Qarabağın nəzarətimizdən müvəqqəti kənarda qalmış hissəsində separatçı tör-töküntülərlə Rusiya bədməramlı qüvvələrin dövlətimiz əleyhinə ortaq demarşları

təhlükəli xarakter alıb. Həyasızlıq, özündənrazılıq və cəzasızlıq hissi o həddə çatıb ki, "Şeytan yuvası"ndan Bakıya hətta ultimativ tələblər və hədələr səslənir, "vaxt" qoyulur, Ağdam-Əsgəran yolu kəsilir. Link (20 iyul 2023)

Rusiyanın altı ildən çoxdur internet məkanında, o cümlədən 300-dən çox sosial media quruluşunda apardığı dezinformasiya kampaniyası ifşa edilib. Novator.az saytı ABŞ-ın Milli İctimai Radiosuna (National Public Radio) istinadla bildirir ki, 2016-cı ildən start götürmüş kampaniya yeddi dildə, həm də çox gizli, üstüörtülü aparılır, təkcə "Facebook", "Twitter", "YouTube" kimi populyar platformaları deyil, müxtəlif ölkələrin az tanınan sosial şəbəkələrini, saytlarını da əhatə edir. Link (20 iyul 2023)

Rusiya millətçilərindən Qarabağ münaqişəsi ilə bağlı həyasız təklif. Link (21 iyul 2023)

Əliyev Şuşadan Kremlə sərt mesaj verdi: Rusiya erməni terrorçuların arxasında gizlənir. Link (21 iyul 2023)

SSRİ 32 ildir cəhənnəmlik olsa da, köhnə və orta nəsil rus siyasi elitasının bir çox tanınmış simalarının "göz yaşları" qurumur ki, qurumur. Mənasız nostalji hisslərinin əsiri olan bu geri zəkalılar vaxtilə rusların ərazisini qamarladığı yeni müstəqil dövlətləri hələ də Rusiyanın "arxa bağçası", hətta "zorla qoparılmış" halal əraziləri hesab edirlər. Link (22 iyul 2023)

Rusiya sülhməramlıları erməni silahlılarının hərbi yüklərinin müşayiətini davam edirlər. Link (25 iyul 2023)

RSK-nın müşayiəti ilə növbəti dəfə Xankəndi-Xəlfəli yolu ilə ermənilərin döyüş mövqelərinə təminat vasitələri daşınır. Link (5 iyul 2023)

Rusiyalı siyasətçilərin qərəzli açıqlamaları Azərbaycanla münasibətlərə zərər vurur. Link (21 iyul 2023)

Rusiya sülhməramlılarının Həkəri körpüsündə bayrağımızın asıldığı dirəyi aşırması Azərbaycana, suverenliyimizə və dövlət atributlarımıza qarşı hörmətsizlikdir. Link (7 iyul 2023)

Axar.az xəbər verir ki, rus sülhməramlı əsgərimizdən terrorçulara qarşı atəş açmamasını, məsələni aydınlaşdıracaqlarını bildirir. Əsgərimiz yalnız öz komandirindən aldığı əmrdən sonra dayanır. Link (11 iyul 2023)

Xankəndidə Rusiya barmağı: Silahlı üsyan çağırışı edildi. Link (14 iyul 2023)

Rusiyanın Bakını hövsələdən çıxaran bəyanatı. Link (16 iyul 2023)

Lavrovun Bakıya qarşı açıq hücumu: Oyun başladı. Link (16 iyul 2023)

Separatçılardan biri Azərbaycan və azərbaycanlıları təhqir edir, Rusiya sülhməramlısı isə özünü ərazinin "sahibi" kimi aparır və Azərbaycan torpağında yerləşdirildiyinin fərqinə varmır. Link (16 iyul 2023)

Rusiyanın dövlət borcu artır. Link (18 iyul 2023)

Sülhməramlıların Ağdamda qurduğu “erməni barrikadası”. Link (19 iyul 2023)

Rusiya böyük inflyasiya fəlakəti astanasındadır. Link (20 iyul 2023)

Sülhməramlıların önündə poz verən erməni terrorçu. Link (20 iyul 2023)

Rusiya mediasında Bakı və Ankaraya qarşı kampaniya. Link (28 iyul 2023)

Qanunsuz erməni silahlı birləşmələri Rusiya sülhməramlı kontingentinin müşayiəti ilə Qarabağa silah-sursat daşımağa davam edir. Link (5 iyul 2023)

Sülhməramlılar bayrağımıza hörmətsizlik etdilər. Link (7 iyul 2023)

Ərazidə Rusiya bayrağı ilə yanaşı, Ermənistanın bayrağı və Qarabağdakı separatçıların əski parçasının da asıldığı aydın görünür. Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa, o zaman bu nə hoqqabazlıq və həyasızlıqdır? Link (18 iyul 2023)

Rusiya sülhməramlı kontingentinin müşayiəti altında növbəti dəfə Xankəndi-Kərkicahan-Xəlfəli yolu ilə ermənilərin döyüş mövqelərinə təminat vasitələri daşınır. Link (18 iyul 2023)

## Qərb

NATO-nun genişlənməsi qlobal təhlükəsizlik dinamikasını daha pis şəkildə dəyişir. Link (12 iyul 2023)

Ukrayna Qərb ölkələrinin özəl hərbi şirkətinə çevrilib. Link (18 iyul 2023)

ABŞ-ın Ukrayna kənd təsərrüfatına pul ayırması qərarı saxtakarlıqdır. Link (19 iyul 2023)

Avropa Parlamenti Avropa İttifaqını saxtakarlıqda ittiham edib. Link (23 iyul 2023)

Amma bəlli, prosesə ciddi maneələr yaradan, süni əngəllərin "istehsal"ı ilə məşğul olan və prosesi ümumiyyətlə, dayandırmağa çalışan qüvvələr də var.Belə qüvvələr arasında Fransanın dövlət başçısı Emmanuel Makron hətta Rusiya Federasiyası və İranla regionda az qala situativ tərəfdaşlıq edərək Bakıya təzyiqlər göstərməyə çalışır, özünü Ermənistanın "hamisi" elan edir. Link (5 iyul 2023)

Zəngəzur dəhlizi Ermənistanın öhdəliyidir - Fransa və İran niyə qərəz göstərir? Link (5 iyul 2023)

Azərbaycanla Ermənistan arasında yekun sülh sazişinin imzalanması prosesi ilə bağlı bədbin və nikbin rəylər var. Bədbin mövqe tutanların fikrincə, Cənubi Qafqazdakı geosiyasi təsir imkanlarını artırmağa çalışan Fransa, Rusiya Federasiyası və İran özlərinə vassal hesab etdikləri Ermənistanın hakimiyyət

elitalarına təsir edərək gərginliyi artırmağa çalışırlar. Link (17 iyul 2023)

Fransa Ermənistanı silahlandırır: Paris Qafqazda sülhə imkan vermir. Link (19 iyul 2023)

Qərb diplomatlarının FETÖ və İbadoğlu eşqi: Azərbaycanın daxili işlərinə müdaxilə yolverilməzdir. Link (27 iyul 2023)

Qərbin prioriteti: Tükənməyən erməni sevgisi, qərəz və ikili standartlar. Link (27 iyul 2023)

Rusiyaya sanksiyalı məhsullar çatdıran Ermənistan niyə cəzalanmır - Qərbin bitməyən "ikili standartı". Link (22 iyul 2023)

Göründüyü kimi, Srebrenitsa soyqırımına beynəlxalq ictimaiyyət tərəfindən müəyyən qiymət verilib, qətliama görə məsuliyyət daşıyan yüksək rütbəli serb generalları gec də olsa, tapılaraq ədalət qarşısına çıxarılıblar. Məhz bu münasibət Xocalı soyqırımına münasibətdə bir qədər fərqdir. Çünki Xocalı soyqırımını törədənlər nəinki törətdiyi cinayətlərə görə cavab veriblər, əksinə sonradan Ermənistanda rəhbər vəzifələrə gələrək Qərb liderləri ilə bir masa arxasında bərabərhüquqlu tərəflər kimi əyləşiblər. Təəssüf ki, bu münasibət Qərbin ikili standartlarının başqa bir təzahürüdür. Link (18 iyul 2023)

ABŞ mediasından Bakıya həqarət: düyməyə basıldı. Link (18 iyul 2023)

Artıq bir neçə ermənipərəst avropalı deputat, o cümlədən Fransanın Avropa və Xarici İşlər Nazirliyi son hadisələrlə əlaqədar növbəti dəfə bəyanat yayaraq, Azərbaycanı "üzərinə götürdüyü öhdəliklərə" əməl etməyə çağırıb. Avropanın siyasi lideri Fransanın "humanitar fəlakət" adlı manipulyasiyaya dərhal reaksiyası, onun ardınca bir çox ölkənin Bakıya çağırışı bu prosesin arxasındakı qüvvəni üzə çıxarır. Fransa addım-addım bölgəyə yaxınlaşmağa çalışır. Link (28 iyul 2023)

Adıçəkilən şəxslər barəsində hazırda istintaq tədbirlərinin aparıldığı bir dönəmdə bir sıra beynəlxalq təşklatlar, eləcə də ABŞ, Böyük Britaniya, Fransa və Almaniyanın Azərbaycandakı səfirlikləri Q.İbadoğlu ilə bağlı tvit paylaşıblar. İlkin istintaqın getdiyi bir dönəmdə belə bir paylaşım, sözsüz ki, birbaşa Azərbaycanın daxili işlərinə kobud müdaxilə cəhdi kimi qiymətləndirilməlidir. Həmin diplomatlar da gözəl bilirlər ki, Azərbaycan müstəqil ölkədir, belə məsələlər qanunlara uyğun şəkildə müstəqil məhkəmə orqanları tərəfindən tənzimlənir. Təmsil etdikləri ölkələr də məhz bu prinsipləri əsas götürür. Beynəlxalq hüquq və qanunlar da bunu ehtiva edir. Həmin diplomatların sadəcə diqqətinə çatdırmaq istərdik ki, əgər düşünürlərsə ki, Azərbaycanın daxili işlərinə müdaxilə edə, təzyiq göstərə bilərlər, çox yanılırlar. Link (27 iyul 2023)

Elə xarici səfirliklərin, o cümlədən də Avropa İttifaqının nümayəndələrini yığıb sərhədə gətirmək də sözün əsl mənasında məsələdən tamaşa düzəltmək anlamına gəlir. Digər tərəfdən, Qərb ölkələrinin səfirlik nümayəndələrinin bu tamaşada iştirakı riyakarlıqdan başqa bir şey deyil. Bu, uzun illər ərzində Qərb tərəfindən nümayiş etdirilən ikiüzlü yanaşmanın başqa bir təzahür formasıdır. Link (27 iyul 2023)

BAKI 2023